

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı


**Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti***

*Qəzet 1921-ci ildən çıxır*

Sayı: 241 (21.142)

*18 dekabr 2014-cü il, cümə axşamı*

***Gündəlik ictimai-siyasi qəzet***

www.serqqapisi.az

Qiyməti 20 qəpik


***Rəsmi xronika***



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 17-də bp şirkətinin icraçı direktoru Robert Dadlini qəbul edib.

Görüşdə Azərbaycan ilə bp şirkəti arasında əməkdaşlığın uğurla həyata keçirildiyi vurğulandı, "Azəri-Çıraq-Günəşli" və "Şahdəniz" yataqlarında işlərin icrasından məmnunluq ifadə olundu, bu ilin sentyabrında "Cənub" qaz dəhlizinin təməli qoyulduqdan sonra layihə üzrə işlərin müvəffəqiyyətlə aparıldığı bildirildi.

Prezident İlham Əliyev və icraçı direktor Robert Dadli Azərbaycan Respublikası Dövlət Neft Şirkəti ilə bp arasında tərəfdaşlıq əlaqələrinə söykənən əməkdaşlığın bundan sonra da davam etdiriləcəyinə ümidvar olduqlarını bildirdilər.

* * *

Dekabrın 17-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev "Qarabağ" futbol klubunun üzvlərini qəbul edib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2014-cü il 17 dekabr tarixli sərəncamları ilə 2013/2014-cü tədris ilində keçirilmiş "Ən yaxşı ümumtəhsil məktəbi" və "Ən yaxşı müəllim" müsabiqələrində müvəffəqiyyət qazanan ümumtəhsil məktəbləri və müəllimlər mükafatlandırılmışlar. Həmin ümumtəhsil məktəbləri və müəllimlər arasında muxtar respublikamızda fəaliyyət göstərən məktəblər və müəllimlər də var.

**"Ən yaxşı ümumtəhsil məktəbi" müsabiqəsində müvəffəqiyyət qazandıqlarına görə 10000 (on min) manat məbləğində birdəfəlik pul mükafatı ilə mükafatlandırılmışlar:**

Babək rayonu Babək qəsəbə tam orta məktəbi
Naxçıvan şəhəri 9 nömrəli tam orta məktəb
Şahbuz şəhəri 2 nömrəli tam orta məktəb

**"Ən yaxşı müəllim" müsabiqəsində müvəffəqiyyət qazandıqlarına görə 5000 (beş min) manat məbləğində birdəfəlik pul mükafatı ilə mükafatlandırılmışlar:**

Cəfərova Sədaqət Rəhim qızı
Əhmədov Ədalət Cəfər oğlu
Həşimova Həyat Nütfi qızı
Kazımov Məhəddin Qənbər oğlu
Rüstəmova Rəxşəndə Mahmud qızı

## Azərbaycan XXI əsrin və üçüncü minilliyin ayrıcında

### *Ümummilli lider Heydər Əliyevin yeni 2001-ci il, yeni əsr və üçüncü minillik münasibətilə Azərbaycan xalqına müraciəti*

**Ulu öndər Heydər ƏLİYEV: *Sizi əmin edirəm ki, Azərbaycan dövləti indiyə qədər olduğu kimi, bundan sonra da Azərbaycanın dövlətçiliyinin, müstəqilliyinin, Azərbaycan xalqının milli azadlığının keşiyində daim duracaq və bu müstəqilliyi cəsarətlə qoruyub saxlayacaqdır.***



*(Əvvəli qəzetin ötən sayında)*

Müstəqil dövlətimiz üçün taleyüklü məsələlərin həyata keçirilməsi tariximizin bir çox qaranlıq səhifələrini açmaqla kimliyimizi tam müəyyən etməyi, milli kökləri ilə bağlı yeni təfəkkürlü gənc nəsil yetişdirilməsini zəruri edir. Keçid dövrünün çətinliklərinə, ağır proseslərinə baxmayaraq, biz öz tarixi keçmişimizin çox dəyərli səhifələrini qısa bir müddətdə aça bilmiş və xalqa göstərməyə nail olmuşuq. Xalqımızın hər bir övladı öz tarixi keçmişini, varisi olduğu mədəni irsi daha dərindən öyrənərək böyük qürur hissi duymağa başlayır və sözsüz ki, bununla fəxr edir.

Müstəqilliyi qorumaq üçün, müxtəlif xarici təzyiqlərdən, təxribatlardan xilas olmaq üçün gərək Azərbaycanda yaratdığımız ictimai-siyasi sabitliyi qoruyaq, möhkəmləndirək. Bunun üçün gərək Azərbaycanda vətəndaşların birliyi, həmrəyliyi yaransın. Siyasi baxışından və cəmiyyətdə mövqeyindən asılı olmayaraq, gərək hər bir vətəndaş düşünsün ki, müxtəlif yerlərdə Azərbaycana qarşı bəzi xəbis niyyətlər və bəd münasibətlər vardır. Bunların qarşısını almaq üçün Azərbaycanın daxilində birlik, həmrəylik yaranmalıdır. Mən xalqımızı dəfələrlə buna dəvət etmişəm, bütün vətəndaşlarımızı buna dəvət etmişəm. Bu gün mən bütün siyasi partiyaları, qurumları, təşkilatları – hamısını, bax bu yola dəvət edirəm. Şəxsi ambisiyaları kənara qoymaq lazımdır. 1991-ci ilin sonunda Azərbaycanın əldə etdiyi dövlət müstəqilliyi tarixi nailiyyətdir və biz bunu qorumalıyıq, saxlamalıyıq. Bunu gələcək nəsillərə daha da möhkəm Azərbaycan dövləti kimi verməliyik. Ona görə də əsas prinsiplərdə, əsas məsələlərdə xalqın birliyi, həmrəyliyi başlıca şərtdir, başqa məsələlərdə müxtəlif baxışlar da ola bilər və mən vətəndaşlarımızı buna dəvət edirəm.

Sizi əmin edirəm ki, Azərbaycan dövləti indiyə qədər olduğu kimi, bundan sonra da Azərbaycanın dövlətçiliyinin, müstəqilliyinin, Azərbaycan xalqının milli azadlığının keşiyində daim duracaq və bu müstəqilliyi cəsarətlə qoruyub saxlayacaqdır. İnanıram ki, müstəqil Azərbaycan Respublikası XXI əsrdə həyatın bütün sahələrində geniş inkişaf edən, çiçəklənən bir ölkə kimi böyük uğurlar qazanacaqdır.

Bizim yaşadığımız bu dünyada çoxlu əlamətdar günlər və bu günlərlə bağlı saysız-hesabsız təbriklər olubdur, insanlar insanları, xalqlar xalqları, dövlətlər dövlətləri təbrik ediblər. Bu xoş təbrikləri, səmimi diləkləri meydana gətirən səbəblər, şübhəsiz ki, müxtəlifdir. Amma bu gün Yer üzündə yaşayan insanların, xalqların və dövlətlərin böyük bir qisminin sevinməsinin, bir-birlərini təbrik etməsinin səbəbi, demək olar ki, eynidir! Qısa bir müddətdən sonra dünya yeni ilə qədəm qoyur! Biz yeni ilin – 2001-ci ilin, yeni bir yüzilliyin, yeni bir minilliyin günlərini yaşamağa başlayırıq. Yeni yüzilliyin, yeni minilliyin gəlişi bizim üçün bir də ona görə əlamətdardır ki, məhz dekabrın 31-də Yer üzündə yaşayan bütün azərbaycanlılar birlik, qardaşlıq, həmrəylik ucalığını bayram edirlər.

Ömrümüzdən ötüb keçmişə çevrilən hər bir gün tarixə məxsusdur. Əlbəttə, iki yüz əsrin qovuşuğunda min illərin tarixi faktlarını, inkişaf salnaməsini araşdırmaq, bu barədə söhbət açmaq həftələrlə, aylarla vaxt apara bilərdi. Qısaca olaraq yalnız bunu deyə bilərəm ki, Azərbaycan xalqının bizim eranın iki min ili ərzində keçib gəldiyi yol yenilməz, zəngin, mərdanə bir qəhrəmanlıq tarixidir!

Ötən əsrin tarixi gerçəkliyi, bəşəri dəyərləri barədə danışmaq həm asandır, həm də çətin! Asandır ona görə ki, ötən yüz il bizə vaxt etibarilə digər əsrlərdən yaxındır. Bu əsrin, demək olar, hər ili, hər ayı, hər həftəsi, hər günü nəinki tarixçilər, alimlər tərəfindən qələmə alınmış, eyni zamanda onun bir çox əhəmiyyətli hadisələri bizim nəsillərin gözü qarşısında baş vermişdir. Bu əsrin xidmətləri daha geniş, daha böyükdür.

XX əsr Azərbaycan xalqının da həyatında silinməz izlər qoymuşdur. Əslində, minilliklərin yekununda, əlbəttə ki, yeni bir Azərbaycan təşəkkül tapmışdır. Qazanılmış nailiyyətlər göz qabağındadır, onu hamı təsdiq edə bilər.

Xalqımızın tarixi taleyi elə imkan yaratmışdır ki, son yüzillikdə Azərbaycan köhnə dünyadan sürətlə qopmuş, elm, mədəniyyət, səhiyyə, təhsil, nəhayət, ictimai-siyasi intibah yolunu tutmuşdur.

Bu gün hər bir azərbaycanlının fəxr etməyə haqqı var ki, bizim ata-babalarımız olduqca qısa bir zaman içində kütləvi savadsızlığa son qoymuş, vətənimiz bütün insanları oxuyub-yazmağı bacaran məmləkətə çevrilmişdir. Xalqımız ellikcə maarifləşmə prosesini uğurla başa vurmuşdur. Ziyalılar ordusunun yüksək vətəndaş fəallığı ilə Şərqdə ilk teatr, ilk opera, ilk kino və sair Azərbaycanda meydana gəlmişdir. Şəhər və kəndlərin memarlıq siması sürətlə dəyişərək qədim ənənələri hifz edib saxlamaqla yeniləşmişdir. Kütləvi surətdə savadlanmaq, elmə, mədəniyyətə, təhsilə can atmaq Azərbaycan xalqının mənəviyyatını da, həyat tərzini də, xarici görünüşünü də dəyişmiş, onu inkişaf edən dünyaya qovuşdurmuşdur.

Budur, yüzillik başa çatır və biz özümüzə hesabat verərkən nə qədər dəyişib, inkişaf etdiyimizi tam səmimiyyətlə etiraf etməli oluruq. Ötüb keçən yüzillikdə Azərbaycan xalqı, sözün həm hərfi, həm də məcazi mənasında, işığa, nurlu bir aləmə çıxmışdır. Bu gün Azərbaycanın təhsili, mədəniyyəti, ümumiyyətlə, iqtisadi, sosial, mədəni, mənəvi və siyasi həyatının bütün sahələri dünya sivilizasiyasına tam cavab verən bir səviyyədədir.

Demokratik, müstəqil Azərbaycan dövlətinin bərqərar olması xalqımızın həm iqtisadi, həm siyasi, həm də mənəvi qələbəsidir. Xalqımızın yüksək mənəviyyatdan irəli gələn böyük dözümü, iradəsi və müdrikliyi bütün Qafqazın sülh, əmin-amanlıq bölgəsinə çevrilməsi üçün ən etibarlı təminatdır.

*Hörmətli həmvətənlərim!*

*Əziz bacılarım, qardaşlarım!*

*İstəkli övladlarım!*

Azərbaycanın çox zəngin intellektual potensialı və misilsiz xammal ehtiyatları, Avropadan Asiyaya gedən yolda əvəzedilməz coğrafi mövqeyi onun dünya birliyində sanballı yer tutmasına imkan verir. TRASEKA proqramı çərçivəsində nəzərdə tutulan Avropa ilə Asiya arasındakı körpü, Böyük İpək Yolunun bərpası ölkəmiz qarşısında intensiv inkişaf üfüqləri açır. Məhz öz coğrafi mövqeyimizə görə biz bütün rabitə vasitələrini inkişaf etdirmək və qlobal informasiya sistemi yaradılmasında irəliləyişi təmin etmək üçün misilsiz imkanlara malikik.

Beynəlxalq hüquq baxımından biz gənc dövlətik. Bu gün artıq bütün bəşəriyyət, bütün xalqlar və millətlər bilirlər ki, mədəniyyət, elm və təhsil insanların ən böyük mənəvi dəyərləri olaraq sabit inkişafı təmin edən mühüm amillərdən biridir. Qlobal dəyişikliklər baş verən bir dövrdə biz bütün səylərimizi bu böyük sərvətin qorunub saxlanmasına sərf etməliyik. Məhz belə yüksək intellektual potensialı olan bir ölkədə qüdrətli vətəndaş cəmiyyəti yarana bilər.

Azərbaycan xalqının həyatının son yüz ili neftlə bağlıdır. Həqiqətən də, neft, eləcə də ölkəmizin digər qiymətli sərvətləri xalqımızın həyatında əhəmiyyətli rol oynamışdır. Bunu inkar etmək olmaz. Lakin Azərbaycanın ən böyük sərvəti onun vətənpərvər insanları, onun müdrik xalqıdır. Bizim xalqımız XXI əsrdə tam rahat, firavan yaşamağa, öz dövlətinə, öz torpağına, öz sərvətlərinə tam sahib durmağa haqqı vardır!

Biz fəxr edirik ki, itirilmiş dövlətçilik ənənələrini XX əsrin sonlarında bərpa etmək fürsəti bizim nəslə nəsib olmuşdur. Azərbaycan Respublikasında dövlətçilik ənənələrinin zənginləşdirilməsi, müstəqilliyimizin daha da möhkəmləndirilməsi, onun əbədi edilməsi hər birimizdən var-qüvvəsini sərf etməyi tələb edir. İnanıram ki, tarixin bir çox sınaqlarından ləyaqətlə çıxmış xalqım bu ali məqsəd uğrunda bütün imkanlarından lazımınca istifadə edəcək, müstəqil Azərbaycan dövlətinin bu günü və sabahının tam təminatçısı olacaqdır. İftixarla demək olar ki, Azərbaycanın XX əsrdə yaratdığı qüdrətli iqtisadi potensial, böyük mütəxəssislər ordusu xalqımızın ən ümdə amallarının həyata keçirilməsi üçün möhkəm baza, əlverişli zəmin rolunu oynayır.

Hər bir xalqın özünəməxsusluğunu müəyyən edən başlıca ünsürlərdən biri onun dilidir. XX əsrdə xalqımızın bu sahədə əldə etdiyi uğurlar yüksək təqdirəlayiqdir. Biz fəxr edirik ki, müstəqil Azərbaycan Respublikasının dövlət dili olan Azərbaycan dili son bir əsrlik dövr ərzində böyük inkişaf yolu keçərək lüğət tərkibini zənginləşdirmiş, qrammatik quruluşunu cilalamış və dünya dilləri içərisində öz layiqli yerini tutmuşdur.

XX əsr Azərbaycanda elmin, ədəbiyyatın və incəsənətin inkişafı sürətli templəri ilə səciyyələnir. Bu əsrdə xalqımız həmin sahələrdəki ənənələri davam etdirilərək xeyli zənginləşmiş, yeni sahələr, formalar və janrlar yaranıb inkişaf etmişdir. Bu gün hər bir azərbaycanlı ikinci minilliyin bəxş etdiyi böyük korifeylər ilə –

*Ardı 2-ci səhifədə*

Mirzə Ələkbər Sabir, Cəlil Məmmədquluzadə, Nəcəf bəy Vəzirov, Məhəmməd Hadi, Abdulla Şaiq, Əlibəy Hüseynzadə, Hüseyn Cavid, Əhməd Cavad, Cəfər Cabbarlı, Əliağa Vahid, Səməd Vurğun, Məmmədhüseyn Şəhriyar, Süleyman Rüstəm, Rəsul Rza, Mirzə İbrahimov, Mehdi Hüseyn, Süleyman Rəhimov kimi şair və yazıçıları, Üzeyir Hacıbəyov, Müslüm Maqomayev, Qara Qarayev, Fikrət Əmirov, Niyazi, Tofiq Quliyev, Cahangir Cahangirov, Süleyman Ələsgərov kimi bəstəkarları, Cabbar Qaryağdıoğlu, Bülbül, Şövkət Məmmədova, Xan Şuşinski, Seyid Şuşinski, Zülfü Adıgözəlov, Rəşid Behbudov, Şövkət Ələkbərova kimi müğənniləri, Abbas Mirzə Şərifzadə, Mirzağa Əliyev, Ülvi Rəcəb, Mərziyyə Davudova, Sidqi Ruhulla, Ələsgər Ələkbərov, Möhsün Sənani, Mustafa Mərdanov, Hökumə Qurbanova, Leyla Bədirbəyli kimi səhnə ustaları, Əzim Əzimzadə, Bəhruz Kəngərli, Səttar Bəhlulzadə, Qəzənfər Xalıqov, Fuad Əbdürrəhmanov, Elmira Şahtaxtinskaya kimi fırça və tişə ustaları ilə haqlı olaraq fəxr edir. Görkəmli alimlərimiz Mirəsədulla Mirqasımov, Yusif Məmmədəliyev, Heydər Hüseynov, Həsən Əliyev, Mustafa Topçubaşov, Əziz Şərif, Murtuza Nağıyev, Zahid Xəlilov, Musa Əliyev, Həsən Abdullayev, Abdulla Qarayev, Cəfər Xəndan, Əbdüləzəl Dəmirçizadə, Məmmədcəfər Cəfərov, Ziya Bünyadov, Fəraməz Maqsudov və başqaları Azərbaycan elminin inkişafında böyük xidmətlər göstərərək ona dünya şöhrəti gətirmişlər. Azərbaycanda sənətin opera, balet, heykəltəraşlıq, kinematoqrafiya kimi yeni növləri yaranaraq sürətlə inkişaf etmişdir. Bu, hamımızda dərin iftixar və qürur hissi doğurur.

XX əsr Azərbaycan qadınının həyatında da çox əlamətdar bir dövr olmuşdur. Əsrin əvvəllərində Azərbaycanda baş verən ictimai-siyasi proseslər, neft sənayesinin sürətli inkişafı qadınların maarifləlnməsinə və ictimai həyata qoşulmasına güclü təkan verdi. Əsrin 20-ci illərindən başlayaraq həyata keçirilən tədbirlər nəticəsində qadınların hərtərəfli inkişafı üçün geniş üfüqlər açıldı. Qısa müddət ərzində qadınlar arasında savadsızlıq ləğv edildi, onların təhsil səviyyəsi kəskin surətdə artdı. Qadınlar pedaqoq, həkim, mühəndis və digər peşələrə yiyələndilər, təhsildə, elmdə və mədəniyyətdə kişilərlə bərabər layiqincə təmsil olundular. Müstəqil Azərbaycan Respublikasının 1995-ci ildə qəbul olunmuş ilk Konstitusiyası qadınların kişilərlə bərabər hüququnu təsdiq etdi və demokratik dövlət quruculuğu prosesində onların fəal iştirakının hüquqi bazasını yaratdı. Biz fəxr edirik ki, bu gün ölkəmizin qarşısında duran problemlərin həllində yaxından iştirak edən Azərbaycan qadını artıq demokratik cəmiyyətin bərabərhüquqlu, fəal üzvü kimi çıxış edir.

Ölkəmizdə bədən tərbiyəsi və idman XX əsrdə xalqımızın həyatının ayrılmaz hissəsinə çevrilmiş sahələrdəndir. İnsana sağlam həyat tərzi, mübarizlik, vətənpərvərlik ruhu aşılamaq, onun intellektual və fiziki imkanlarını üzə çıxarıb inkişaf etdirmək baxımından idmanın və bədən tərbiyəsinin rolu danılmazdır. Biz fəxr edirik ki, idmanın müxtəlif növlərində öz böyük məharətini göstərərək Azərbaycanın adını yüksəklərə qaldıran gənclərimiz vardır.

Tarixin bu böyük anında unudulmaz bayramlar münasibətilə xalqımın hər bir oğul və qızını sonsuz bir iftixar hissi ilə təbrik edir, hamınıza cansağlığı, əbədi xoşbəxtlik arzulayıram!

Mən bu yeni əsrin, yeni minilliyin ərəfəsində dünyanın hansı guşəsində məskunlaşmasından asılı olmayaraq, Azərbaycanın xoş gələcəyi üçün fəaliyyət göstərən bütün soydaşlarımızı təbrik edirəm.

Bu gün biz azad, demokratik bir cəmiyyətdə yaşayır, müqəddəs torpağımızın keşiyini çəkir, sülh və dincliyə can atırıq. Müstəqillik və ərazi bütövlüyünün təmin olunmasında nizami ordumuzun, zabit və əsgərlərimizin dözümü, rəşadəti danılmazdır. Bu bayram günündə mən onların Vətən qarşısında xidmətlərini yüksək qiymətləndirir, hər birinə bayramınız mübarək olsun, deyirəm!

Yeni minillikdə dünya xalqlarının ən böyük istəyi sülh və əmin-amanlıqdır. İnsanlar dağıdıcı müharibələrə, qaçqın-köçkünlüyə qətiyyətlə yox deyir, dinc yaşamaq istəyirlər. Tale elə gətirib ki, bu gün Azərbaycanın bir milyondan çox sakini öz yurdundan zor gücünə çıxarılıb, onların bir çoxu çadırlarda, heç bir şəraiti olmayan binalarda yerləşdirilibdir. Bu gün mən böyük həyəcan hissi ilə onların hər birini yada salır, tezliklə doğma yurdlarına dönmək arzularına şərik çıxır və inanıram ki, çətinliklərə mətanətlə sinə gərən qardaş və bacılarımın ata ocağına dönəcəkləri gün uzaqda deyildir.

Bu bayram günündə mən torpaqlarımızın azadlığı uğrunda canından keçmiş şəhid balalarımızın hər birinin ruhu önündə baş əyir, şəhid ailələrinə səbir, dözüm diləyir və bəyan edirəm ki, torpaq naminə özünü fəda etmiş insanların xatirəsi bundan sonra da daim qəlbimizdə yaşayacaqdır.

Gələcəyimiz olan uşaqları, yeniyetmələri, şagirdləri, tələbələri bağrıma basır, onlara mübarizələrlə dolu həyat yollarında cansağlığı və uğurlar diləyirəm.

Dünyada heç bir çətinlik əbədi deyildir. Tarix boyu bütün mübarizələrin sonunda ədalət zəfər çalmışdır. Ona görə də mən üzümüzə gələn 2001-ci ili ümid, inam ili adlandırardım. Çünki inanıram ki, xalqımız həmişə olduğu kimi, 2001-ci ildə də üzərinə düşən vəzifələrin öhdəsindən layiqətlə gələcəkdir. Müstəqilliyimiz möhkəmlənəcək, torpaqlarımız azad olunacaq, Azərbaycan Respublikası sülh və firavanlığa qovuşacaqdır.

*Bayramınız mübarək olsun!*

*Yeni iliniz mübarək olsun!*

*Yeni əsriniz, yeni minilliyiniz mübarək olsun!*

*Yaşasın azad, müstəqil, demokratik*

*AZƏRBAYCAN!*

## "Ümummilli lider Heydər Əliyev və dünya azərbaycanlılarının həmrəyliyi" mövzusunda konfrans



***1991-ci il dekabrın 16-da Naxçıvan Muxtar Respublikasının Ali Məclisi ümummilli liderimiz Heydər Əliyevin təşəbbüsü və imzası ilə 31 dekabrın Dünya Azərbaycanlılarının Həmrəylik Günü kimi qeyd edilməsi barədə qərar qəbul edib. Siyasi-ideoloji baxımdan böyük əhəmiyyət kəsb edən bu hadisə Azərbaycançılıq ideyalarının təbliği və ümumxalq birliyinin təmin edilməsi baxımından önəmlidir.***

Yeni Azərbaycan Partiyası Naxçıvan Şəhər Təşkilatının dekabrın 16-da Naxçıvan şəhərindəki Dövlət Bayrağı Muzeyində "Ümummilli lider Heydər Əliyev və dünya azərbaycanlılarının həmrəyliyi" mövzusunda keçirdiyi elmi konfransda çıxış edən partiyanın Naxçıvan Şəhər Təşkilatının sədri, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Elman Cəfərli bu barədə ətraflı söhbət açdı.

"Ümummilli lider Heydər Əliyev və milli ideologiya məsələləri" mövzusunda çıxış edən Elman Cəfərli bildirdi ki, ulu öndər Heydər Əliyev hələ Sovet hakimiyyəti illərində Azərbaycana rəhbərlik edərkən respublikanın gələcək müstəqilliyini aydın görüb, özünün bütün fəaliyyətini ümummilli mənafelərin həyata keçirilməsinə həsr edib. 1990-cı illərin əvvəllərində Naxçıvan Muxtar Respublikasına, 1993-cü ildən isə müstəqil Azərbaycan Respublikasına rəhbərlik edərkən O, Azərbaycançılıq məfkurəsini xalqımızın vahid milli ideyası kimi irəli sürüb, bu ideyaları daha da inkişaf etdirərək milli ideologiyamızın nəzəri və təcrübi konsepsiyasını yaradıb, dövlətçilik ideologiyası kimi inkişaf etdirib.

Yeni Azərbaycan Partiyası Naxçıvan Şəhər Təşkilatı Şurasının üzvü, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı, AMEA-nın müxbir üzvü Fəxrəddin Səfərli "Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 17 noyabr 1990-cı il və 16 dekabr 1991-ci il tarixli qərarları və onların tarixi əhəmiyyəti" mövzusundakı məruzəsində bildirdi ki, ümummilli lider Heydər Əliyev Naxçıvanda yaşadığı və muxtar respublikaya rəhbərlik etdiyi illərdə müstəqil Azərbaycan dövlətçiliyinin tarixinə qızıl hərflərlə yazılan bir sıra mühüm qərarlara imza atıb. 1990-cı il noyabrın 17-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin ilk sessiyasına rəhbərlik edən ulu öndərin təşəbbüsü ilə Azərbaycan Respublikasının üçrəngli, ay-ulduzlu Dövlət Bayrağı ilk dəfə Naxçıvan Muxtar Respublikasının dövlət rəmzi kimi qəbul edilib.

Qeyd olundu ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov 2014-cü il noyabrın 17-də bundan sonra hər il bu günün Naxçıvan Muxtar Respublikasında "Dövlət Bayrağı Günü" kimi qeyd olunması haqqında sərəncam imzalayıb. Bu sərəncam ümummilli liderimizin xatirəsinə böyük ehtiramın ifadəsi olmaqla yanaşı, Naxçıvanın müstəqil Azərbaycan tarixində oynadığı mühüm rolun əbədiləşdirilməsinə də böyük töhfədir. Ulu öndərin Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri kimi imza atdığı mühüm qərarlardan biri isə 1991-ci il dekabrın 16-da 31 dekabrın Dünya Azərbaycanlılarının Həmrəylik Günü kimi qeyd olunması haqqında qərar olub.

Naxçıvan Özəl Universitetinin İdarəetmə fakültəsinin dekanı, tarix üzrə fəlsəfə doktoru, dosent Elbrus İsayev "Ulu öndər Heydər Əliyev və dünya azərbaycanlılarının həmrəyliyi" mövzusundakı çıxışında qeyd etdi ki, ümummilli liderimiz Heydər Əliyevin sərəncamı ilə ilk dəfə 2001-ci il noyabr ayının 9-10-da Bakı şəhərində Dünya Azərbaycanlılarının I Qurultayı keçirilib, bu sahədə dövlət siyasətini həyata keçirən mərkəzi icra hakimiyyəti orqanı – Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsi yaradılıb. Məhz bundan sonra dünyaya səpələnmiş milyonlarla azərbaycanlı təşkilatlanmağa başlayıb, vahid Azərbaycançılıq ideyası və müstəqil dövlətimizin bayrağı altında birləşərək ümummilli həmrəylik ideyası uğrunda səfərbər olub.

Vurğulandı ki, dövlət başçısı cənab İlham Əliyev bu sahədə də ulu öndərimizin siyasətini uğurla davam etdirir. 2006-cı və 2011-ci illərdə keçirilən Dünya Azərbaycanlılarının II və III qurultayları göstərdi ki, artıq həmin siyasət özünün əsaslı nəticələrini verib.

Konfransa Yeni Azərbaycan Partiyası Naxçıvan Şəhər Təşkilatının sədri Elman Cəfərli yekun vurdu.

Daha sonra Yeni Azərbaycan Partiyası sıralarına qəbul edilən yeni üzvlərə partiyanın vəsiqələri təqdim edildi.

**Xəbərlər şöbəsi**

## Serbiyada Naxçıvan Muxtar Respublikasının yaradılmasının 90 illiyi qeyd olunmuşdur





***Dekabrın 16-da Belqrad şəhər meriyasında Naxçıvan Muxtar Respublikasının yaradılmasının 90 illiyi ilə əlaqədar tədbir keçirilmişdir.***

Azərbaycanın Serbiyadakı Səfirliyinin və Belqradda fəaliyyət göstərən Azərbaycan Mədəniyyət Mərkəzinin təşkilatçılığı ilə keçirilən tədbirdə Serbiya hökuməti və parlamentinin üzvləri, tanınmış ictimai-siyasi, elm və mədəniyyət xadimləri, burada akkreditə olunmuş diplomatik korpusun təmsilçiləri, eləcə də Serbiyada yaşayan həmvətənlərimiz və çoxsaylı kütləvi informasiya vasitələrinin nümayəndələri iştirak etmişlər.

Əvvəlcə Azərbaycanın, eləcə də Naxçıvan Muxtar Respublikasının tarixi abidələrini və təbiət mənzərələrini əks etdirən fotolardan ibarət sərgiyə baxış olmuşdur.

Tədbirdə Azərbaycanın Serbiyadakı Səfirliyinin müşaviri Anar Əcəmov çıxış edərək demişdir ki, Azərbaycan qədim tarixə və zəngin mədəniyyətə malikdir. Ölkəmiz hələ 1918-1920-ci illərdə müstəqillik dövrü yaşadığı zaman böyük uğurlar əldə etmişdir. Belə ki, İslam aləmində ilk demokratik respublika məhz Azərbaycanda qurulmuş, bir çox Avropa ölkələrindən daha əvvəl qadınlara seçib-seçilmək və kişilərlə bərabər hüquqlar verilmişdir. 1920-ci ildə bolşevik işğalı nəticəsində Azərbaycanın müvəqqəti olaraq öz müstəqilliyini itirdiyini qeyd edən diplomat diqqətə çatdırmışdır ki, o zamankı sovet rəhbərliyinin həyata keçirdiyi qərəzli siyasət nəticəsində Azərbaycan əraziləri Ermənistana verilmişdir. Bunun nəticəsində də dilbər guşələrimizdən biri olan Naxçıvan Azərbaycanın əsas ərazisindən ayrı düşmüşdür.

90 il əvvəl, 1924-cü ildə Azərbaycanın tərkibində Naxçıvan Muxtar Respublikasının yaradıldığını bildirən Anar Əcəmov bu tarixi hadisənin böyük təntənə ilə qeyd olunduğunu diqqətə çatdırmışdır. Bildirilmişdir ki, ölkə Prezidenti cənab İlham Əliyevin "Naxçıvan Muxtar Respublikasının 90 illik yubileyinin keçirilməsi haqqında"kı Sərəncamına uyğun olaraq, dünyanın müxtəlif ölkələrində bir sıra tədbirlər təşkil olunur. Naxçıvan bəşər tarixində insanların ilk məskunlaşdığı ərazilərdən və dünyada ən qədim mədəni mərkəzlərdəndir. Bu diyar tarixi irsinə, elmi, mədəni, siyasi və hərbi sahələrdəki nailiyyətlərinə görə Azərbaycanın əhəmiyyətli bölgəsi hesab edilir. Naxçıvanın önəmi həm də görkəmli dövlət xadimi, müasir Azərbaycanın memarı və qurucusu ümummilli lider Heydər Əliyevin burada anadan olması ilə bağlıdır. Naxçıvan həmçinin XII əsrin böyük memarı Əcəminin, görkəmli rəssam Bəhruz Kəngərlinin, məşhur kimyaçı-alim, akademik Yusif Məmmədəliyevin, Azərbaycan dramaturgiyasının tanınmış simaları Hüseyn Cavidin və Cəlil Məmmədquluzadənin vətənidir.

Diqqətə çatdırılmışdır ki, bu gün Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə həyata keçirilən uğurlu siyasət nəticəsində Naxçıvan da sürətlə inkişaf edir, beynəlxalq əlaqələrini genişləndirir. Naxçıvan şəhərində müasir Beynəlxalq Hava Limanının istifadəyə verildiyini deyən diplomat bildirmişdir ki, Avropa ilə Asiyanı birləşdirəcək Bakı-Tbilisi-Qars dəmir yolu layihəsinin reallaşması ilə Naxçıvandan birbaşa paytaxt Bakıya getmək mümkün olacaqdır.



Sonra Naxçıvan torpağının görkəmli oğlu, dünya şöhrətli dramaturq Cəlil Məmmədquluzadənin serb dilində nəşr edilmiş "Seçilmiş əsərləri" kitabının təqdimatı keçirilmişdir. Azərbaycanın bu ölkədəki səfirliyinin təşəbbüsü və dəstəyi ilə işıq üzü görən nəşrdə ön sözün müəllifi Serbiya Yazıçılar İttifaqının sədri Radomir Andriçdir.

Radomir Andriç tədbirdə çıxış edərək son illər Azərbaycan ilə Serbiya arasında münasibətlərin müxtəlif istiqamətlərdə, xüsusilə humanitar sahədə sürətli inkişafından məmnunluğunu ifadə etmişdir. Qeyd olunmuşdur ki, iki ölkənin ədəbiyyat, elm, mədəniyyət və incəsənət xadimlərinin qarşılıqlı səfərləri, o cümlədən hazırkı tədbir dost serb və Azərbaycan xalqları arasında yüksəksəviyyəli əməkdaşlığın bariz nümunəsidir. O, ölkəmiz tərəfindən Serbiyada həyata keçirilən humanitar layihələrə görə Azərbaycan xalqına və hökumətinə, xüsusilə Prezident İlham Əliyevə minnətdarlığını bildirmişdir.

*Tədbir Azərbaycan və Serbiya bəstəkarlarının əsərlərinin ifa olunduğu konsert proqramı ilə davam etdirilmişdir.*

# “Naxçıvan Muxtar Respublikasının inkişafı” mövzusunda elmi konfrans keçirilib

*Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2014-cü il 17 yanvar tarixli Sərəncamı ilə təsdiq olunmuş Naxçıvan Muxtar Respublikasının 90 illik yubileyinə dair Tədbirlər Planına əsasən, dekabrın 17-də AMEA Naxçıvan Bölməsinin, Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsinin, Naxçıvan Dövlət Universitetinin və Naxçıvan Müəllimlər İnstitutunun təşkilatçılığı ilə “Naxçıvan Muxtar Respublikasının inkişafı” mövzusunda elmi konfrans keçirilib.*



AMEA Naxçıvan Bölməsində keçirilən konfransı giriş sözü ilə açan bölmənin sədri, akademik İsmayıl Hacıyev bildirib ki, 2014-cü il Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri tərəfindən muxtar respublikada “Muxtariyyət ili” elan olunub. Azərbaycan Respublikasının Prezidenti “Naxçıvan Muxtar Respublikasının 90 illik yubileyinin keçirilməsi haqqında” 2014-cü il yanvarın 14-də Sərəncam imzalayıb. Həmin sərəncamın icrası ilə əlaqədar Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2014-cü il 17 yanvar tarixli Sərəncamı ilə “Naxçıvan Muxtar Respublikasının 90 illik yubileyinə həsr olunmuş Tədbirlər Planı” təsdiq edilib. Bu gün keçirilən elmi konfrans da həmin tədbirlər planının tərkib hissədir.

İsmayıl Hacıyev qeyd edib ki, bu il aprelin 8-də Naxçıvan şəhərindəki Heydər Əliyev Sarayında Naxçıvan Muxtar Respublikasının yaradılmasının 90 illiyi Azərbaycan Prezidenti cənab İlham Əliyevin iştirakı ilə dövlət səviyyəsində qeyd olundu. Həm dövlət başçısı cənab İlham Əliyevin, həm də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun çıxışlarında qədim diyarın muxtariyyət qazanması onun respublikamızın tərkibində saxlanılmasına, inkişafına, təhlükəsizliyinin təminatına şərait yaratdığı fikri bir daha vurğulandı.

AMEA Naxçıvan Bölməsi Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun şöbə müdiri, tarix üzrə fəlsəfə doktoru, dosent Asəf Orucov çıxışında deyib ki, Naxçıvanda böyük dövlətçilik ənənələrinin əsası çox qədim dövrlərdən qoyulub. Belə ki, bu ərazidə onuncu əsrdə Naxçıvan şahlığı, on ikinci əsrdə isə Atabəylər dövləti yaranıb. On səkkizinci əsrdə Azərbaycan ərazisində yaranmış 18 xanlıqdan biri olan Naxçıvan xanlığı inzibati idarəçiliyin formalaşmasına mühüm töhfələr verib. İyirminci əsrin əvvəllərində 1 milyondan çox əhaliyə malik olan Araz-Türk Respublikası Naxçıvanın müdafiə qabiliyyətinin möhkəmlənməsində və tarixi ərazisinin qorunmasında xüsusi xidmətlər göstərib. Naxçıvanın muxtariyyəti dövlətçilik ənənələrinin davamı olaraq meydana gəlib. Naxçıvan Muxtar Respublikası 1918-1924-cü illərdə cərəyan edən daxili və xarici amillərin təsiri altında yaranıb.

Naxçıvan əhalisinin və ziyalılarının inadlı mübarizəsi, Türkiyə hökumətinin tutduğu ədalətli mövqe nəticəsində 1921-ci ildə Naxçıvanın muxtar respublika statusunda Azərbaycanın tərkibində qalmasını şərtləndirən Moskva və Qars müqavilələrinin imzalanması, bu sənədlər əsasında 1924-cü il fevralın 9-da Naxçıvan Muxtar Respublikasının təşkil olunması ilə birlikdə qədim diyarın təhlükəsizliyi və gələcək inkişafı da təmin edilmiş oldu.

Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsinin sədri Kamal Cəfərov “Naxçıvan Muxtar Respublikasının keçdiyi inkişaf yolu” mövzusunda məruzə ilə çıxış edib. Bildirib ki, bu il 90 illik yubileyini qeyd edən Naxçıvan Muxtar Respublikası uğurlu inkişaf yolu keçib. Bu inkişaf yolunun əsası ümummilli liderimiz Heydər Əliyev tərəfindən qoyulub. Məhz ulu öndərimizin hakimiyyətinin birinci dövründə Azərbaycan Respublikası, o cümlədən muxtar respublika tənəzzüldən inkişafa doğru istiqamət götürüb. 1969-cu ildə dahi şəxsiyyətin Azərbaycanda hakimiyyətə gəlməsindən sonra ölkəmizin yüksəliş dövrü başlayıb.

“İqtisadiyyatın bütün sahələrinin inkişafı üçün 1970-1985-ci illərdə tədavüldəki manat hesabı ilə 900 milyon manat investisiya qoyulub və orta illik göstərici 60 milyon manat olmaqla, əvvəlki 10 ilin orta göstəricisini 3 dəfə üstələyib. Həmin illərdə Araz çayı üzərində su elektrik stansiyası, Alt Trikotaj Məmulatları Fabriki, yeni mineral su zavodu, Şüşə Qablar Zavodu, bütövlükdə, 16 iri sənaye müəssisəsi tikilib istifadəyə verilib. Bütün bu genişmiqyaslı quruculuq fəaliyyəti nəticəsində Naxçıvan Muxtar Respublikasında sənaye məhsulunun ümumi həcmi 1985-ci ildə 1970-ci ilə nisbətən 4,6 dəfə artıb”, – deyən komitə sədri əlavə edib ki, 1980-ci ildə 2 gündə istehsal edilən məhsulun həcmi 1924-cü il ərzində istehsal olunan ümumi məhsulun həcminə bərabər olub. Bu da inkişafın səviyyəsini göstərir.

Qeyd olunub ki, Naxçıvan Muxtar Respublikasında yeni inkişaf mərhələsinə Ali Məclisin 16 dekabr 1995-ci ildə keçirilmiş sessiyasından başlanıldı. Məhz həmin sessiyada Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri seçilmiş cənab Vasif Talıbov 1969-cu ildən başlanan Heydər Əliyev quruculuq və inkişaf xəttinin muxtar respublikamızda fəal yaradıcı gücə malik olduğunu öz əməyi və gərgin işi ilə sübut etdi. Uzun illər blokada şəraitində olması ilə əlaqədar fəaliyyətini dayandırmış sənaye müəssisələrinin fəaliyyətinin bərpa edilməsi nəticəsində 2003-cü ildə muxtar respublikada 18 milyon manatlıq sənaye məhsulu istehsal edilib və bu, 1993-cü ildəki müvafiq göstəricini 3,4 dəfə üstələyib.

Kamal Cəfərov bildirib ki, 2004-cü ildən bu günədək muxtar respublikada 241 inzibati bina, mənzil təsərrüfatı üzrə 49 obyekt, 125 elm və təhsil müəssisəsi, o cümlədən 26 min 936 şagird yerlik 87 ümumtəhsil məktəbi, 181 mədəniyyət obyekti, 154 səhiyyə müəssisəsi, 18 idman obyekti, sosial qayğıya ehtiyacı olan şəxslər üçün 423 fərdi ev, 31 nasos stansiyası, 150 subartezian quyusu, 63 körpü, 636 istehsal və xidmət obyekti tikilərək istifadəyə verilib. İdarəetmənin səmərəli təşkili və ucqar yaşayış məntəqələrinin inkişafı bu müddət ərzində diqqətdə saxlanılıb və son illər ərzində 4 şəhər və qəsəbə mərkəzi, 109 kənd mərkəzi istifadəyə verilib. Yerli istehsalın inkişafı strategiyasına uyğun olaraq, hazırda muxtar respublikada 352 növdə məhsul istehsal olunur ki, bu məhsulların 117 növü ərzaq, 235 növü qeyri-ərzaq məhsullarıdır. 107 növdə ərzaq, 229 növdə qeyri-ərzaq məhsulları olmaqla, ümumilikdə, 336 növdə məhsula olan tələbatın yerli istehsal hesabına ödənilməsi təmin edilib.

Sonra Naxçıvan Dövlət Universitetinin prorektoru, fəlsəfə üzrə elmlər doktoru, professor Məmməd Rzayevin “Naxçıvan Muxtar Respublikasında ali təhsilin inkişafı”, Naxçıvan Müəllimlər İnstitutunun prorektoru, filologiya üzrə elmlər doktoru, professor Akif İmanlının “Naxçıvan Muxtar Respublikasında təhsilin inkişafı”, AMEA Naxçıvan Bölməsinin Təbii Ehtiyatlar İnstitutunun şöbə müdiri, iqtisad üzrə fəlsəfə doktoru Cavadxan Qasımovun “Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafında aqrar sektorun rolu”, həmin institutun elmi işçisi Sevinc Cabbarovanın “Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafı və əmək ehtiyatları” mövzularında məruzələri dinlənilib.

✍ **Rauf ƏLİYEV**

*18 dekabr Beynəlxalq Miqrant Günüdür*

# Muxtar respublikada dövlət miqrasiya siyasəti uğurla həyata keçirilir

***Birləşmiş Millətlər Təşkilatı Baş Assambleyası 1990-cı il dekabrın 18-də “Bütün əməkçi miqrantların və onların ailə üzvlərinin hüquqlarının müdafiəsi haqqında” Konvensiya qəbul etmişdir. Baş Assambleyanın qərarına əsasən, 2000-ci ildən etibarən 18 dekabr “Beynəlxalq Miqrant Günü” kimi qeyd edilir. Bu Konvensiya Azərbaycan Respublikası Milli Məclisinin 1998-ci il 11 dekabr tarixli Qanunu ilə ratifikasiya olunmuşdur.***

Miqrasiya müxtəlif səbəblərdən insanların bir yerdən başqa yerə köçərək daimi və müvəqqəti olaraq öz yaşayış yerini dəyişməsidir. İctimai proses olan miqrasiya eyni zamanda iqtisadi, siyasi və mənəvi amillərin təsiri nəticəsində də baş verir. Buna görə də daha çox inkişaf etmiş və inkişaf etməkdə olan dünya dövlətləri miqrasiya məsələlərinin beynəlxalq hüquq normaları ilə tənzimlənməsi və miqrantların hüquqlarının qorunması istiqamətində sıx əməkdaşlığa üstünlük verirlər. Bu gün ölkəmizdə Beynəlxalq Miqrant Gününün qeyd olunması Azərbaycan dövlətinin miqrasiya proseslərinə həssaslıqla yanaşaraq milli və irqi ayrı-seçkilik olmadan tənzimlənməsində maraqlı olduğunu göstərir.

Müstəqilliyini bərpa etdikdən sonra ölkəmiz miqrasiya proseslərinin həm müsbət, həm də mənfi halları ilə üzləşmişdir. Belə ki, Ermənistanın Azərbaycan torpaqlarının işğalı və etnik təmizləmə siyasəti nəticəsində bir milyondan artıq soydaşımız öz doğma yurdlarından didərgin düşərək qaçqın və məcburi köçkünə çevrilmişlər. Bu səbəbdən də Azərbaycan dünyada ərazisində ən çox daxili miqrant məskunlaşmış ölkəyə çevrilmişdir.

Ümummilli lider Heydər Əliyev müxtəlif səbəblərdən miqrasiya etmiş ölkə vətəndaşlarının hərtərəfli dövlət qayğısı ilə əhatə olunmasına, onların üzləşdiyi problemlərin həllinə çalışmışdır. Bu sahədə dövlət siyasətini uğurla davam etdirən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev də həm xarici, həm də daxili miqrasiyanın mənfi təzahürlərinin aradan qaldırılması istiqamətində səmərəli və məqsədyönlü tədbirlər görməkdədir. Xüsusən də urbanizasiya prosesinin qarşısının alınmasını ilk gündən iqtisadi siyasətdə mühüm prioritetlərdən biri kimi müəyyənləşdirən ölkə başçısı sosial ədalət prinsipinin qorunması baxımından ölkəmizin hər bir bölgəsinin tarazlı inkişafını diqqət mərkəzində saxlayır.

Miqrasiya sahəsində dövlət siyasətinin həyata keçirilməsi, miqrasiya proseslərinin və bu sahədə yaranan münasibətlərin tənzimlənməsi, habelə əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin hüquqi vəziyyəti sahəsində ölkəmizdə əhəmiyyətli işlər görülmüşdür. Qısa müddətdə miqrantların ölkədə yaşaması və işləməsi barədə mükəmməl qanunvericilik bazası formalaşdırılmış, Miqrasiya Məcəlləsi qəbul edilmişdir. Miqrasiya Məcəlləsi ölkə ərazisində miqrasiya sahəsində dövlət siyasətinin həyata keçirilməsi, miqrasiya proseslərinin və bu sahədə yaranan münasibətlərin tənzimlənməsi, habelə əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin hüquqi vəziyyəti ilə bağlı normaları müəyyənləşdirir.

Ölkəmizə gələn əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin hüquqi vəziyyəti Azərbaycan Respublikasının Konstitusiyası, Azərbaycan Respublikasının “Pasportlar haqqında”, “Qaçqınların və məcburi köçkünlərin, ölkə daxilində köçürülmüş şəxslərin statusu haqqında”, “Yaşayış yeri və olduğu yer üzrə qeydiyyat haqqında” qanunları ilə də tənzimlənir. Azərbaycan Respublikası Konstitusiyasının 69-cu maddəsinin I hissəsində qeyd olunur ki, əcnəbilər və vətəndaşlığı olmayan şəxslər Azərbaycan Respublikasında olarkən, qanunla və ya Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilə ilə başqa hal nəzərdə tutulmayıbsa, Azərbaycan Respublikasının vətəndaşları ilə bərabər bütün hüquqlardan istifadə edə bilər və bütün vəzifələri yerinə yetirməlidirlər. Belə ki, əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin sərbəst hərəkət etmək və yaşayış yeri seçmək, əmək fəaliyyəti ilə məşğul olmaq, şəxsi toxunulmazlıq, mənzil toxunulmazlığı, investisiya və sahibkarlıq fəaliyyəti, istirahət etmək, sağlamlığın qorunması, təhsil almaq kimi mühüm hüquqları ölkə qanunvericiliyində təsbit olunmuşdur.

Ölkə həyatının bütün sahələrindəki inkişaf dünya mədəniyyətinə və iqtisadiyyatına inteqrasiya edən Azərbaycanın mənşə ölkəsindən daha çox təyinat ölkəsinə çevrilməsinə şərait yaratmışdır. Uğurla həyata keçirilən islahatlar nəticəsində davamlı miqrant axınının ölkəmizin milli maraqları çərçivəsində tənzimlənməsi və daxili əmək bazarının qanunsuz miqrantlardan qorunması təmin olunmuşdur.

***“Qanuni əsaslarla ölkəyə gələn hər bir əcnəbi nəzərdə tutulmuş bütün hüquq və azadlıqlardan istifadə etməlidir. Bunun üçün hər cür şərait yaradılmış və hüquqi baza formalaşdırılmışdır”***, – deyən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun rəhbərliyi ilə muxtar respublikada insan və vətəndaş hüquq və azadlıqlarının təminatı diqqət mərkəzində saxlanılır, miqrasiya sahəsində qarşıda duran məsələlər uğurla həll olunur. Bu gün muxtar respublikada əcnəbilər və vətəndaşlığı olmayan şəxslər üçün əlverişli qeydiyyat şəraiti yaradılmışdır. Ölkəmizdə miqrantların rahatlığının təmin edilməsi məqsədilə sərhədburaxılış məntəqələrinin miqrasiya bölmələrində qeydiyyatın sadələşdirilmiş formada aparılması ilk dəfə Naxçıvan Muxtar Respublikasında tətbiq olunmuşdur. Hazırda məntəqələrdə bu sahədə uçot işi Vahid Miqrasiya Məlumat Sistemi vasitəsilə aparılır.

Sabitlik və sürətli sosial-iqtisadi inkişaf muxtar respublikaya miqrasiya axınını son illər daha da sürətləndirmişdir. Statistik məlumatlar göstərir ki, 2014-cü ilin 11 ayı ərzində muxtar respublikada 15 min 367 əcnəbi olduğu yer üzrə qeydiyyata alınmış, 708 əcnəbiyə müvəqqəti yaşamaq icazəsi verilmiş, 195 əcnəbiyə isə haqqıödənilən əmək fəaliyyəti ilə məşğul olmaq üçün iş icazəsi verilmişdir.

Miqrasiya sahəsində vətəndaşlara göstərilən xidmətin operativliyinin təmin olunması, əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin miqrasiya qanunvericiliyi sahəsində hüquqi məlumatlar əldə etməsi məqsədilə Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidmətinin rəsmi internet səhifəsi yaradılmışdır. Saytın Azərbaycan, ingilis və rus dillərində fəaliyyət göstərməsi dünyanın istənilən yerindən gələn hər bir əcnəbi vətəndaşın ondan rahatlıqla istifadə etməsinə imkan verir. Eyni zamanda sayt vasitəsilə əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin ölkə ərazisində yaşama və olma məsələləri ilə bağlı elektron müraciətlərin qəbulu və vaxtında cavablandırılması işləri intensiv şəkildə həyata keçirilir.

Muxtar respublikada miqrasiyanın idarə edilməsində beynəlxalq təcrübənin öyrənilməsi və bu sahədə kadr potensialının formalaşdırılması da daim diqqət mərkəzində saxlanılır. Belə ki, bu məqsədlə xidmət əməkdaşları “Qanunsuz miqrantların aşkarlanması və qayıdışın icrası” mövzusunda Niderland Krallığında keçirilən təlimdə və “Cənubi Qafqazda səmərəli readmissiya idarəçiliyinin yaradılmasının dəstəklənməsi” layihəsi çərçivəsində Polşa, Belçika və Almaniya Federativ respublikalarında keçirilən tədbirlərdə iştirak etmiş, bu sahədə beynəlxalq təcrübələrə yiyələnmişlər. Bundan başqa, Naxçıvan Muxtar Respublikası bu sahədə keçirilən tədbir, konfrans və təlimlərə ev sahibliyi edir. 2013-cü il oktyabrın 24-25-də Naxçıvan Muxtar Respublikasında Beynəlxalq Miqrasiya Təşkilatı tərəfindən “Miqrasiya məsələləri: Miqrasiya idarəçiliyinə dair təcrübələrin bölüşdürülməsi” adlı beynəlxalq konfrans, 2014-cü il 27 noyabr tarixdə Birləşmiş Millətlər Təşkilatının Qaçqınlar üzrə Ali Komissarlığı və Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidməti tərəfindən “Sığınacağın istiqamətləndirmə mexanizmlərinin təkmilləşdirilməsi”nə dair birgə təlimlər keçirilmişdir. Təlimlərdə bir sıra xarici dövlətlərin və beynəlxalq təşkilatların rəhbər nümayəndələri iştirak etmişdir.

***Həyata keçirilən uğurlu islahatlar nəticəsində muxtar respublikada əhalinin yaşayış səviyyəsi xeyli yüksəlmiş və bütün sahələrdə müşahidə olunan sürətli inkişaf miqrasiya proseslərinin intensivləşməsini şərtləndirmişdir. Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidmətinin kollektivi bundan sonra da işini əldə olunan sürətli sosial-iqtisadi inkişaf tempinə uyğun quracaq, bu sahədə nümunəvi xidmət təşkil edəcəkdir.***

***Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidmətinin mətbuat xidməti***

# Seçki marafonu

Bələdiyyə seçkiləri – 2014

**23 dekabr 2014-cü il Azərbaycan Respublikasında bələdiyyə seçkiləri günüdür.**

**Seçki məntəqəsinin açılması**

Seçki günü səhər saat $7^{00}$-dən gec olmayaraq, məntəqə seçki komissiyasının üzvləri seçki məntəqəsini səsvermə prosesinə hazırlamaq üçün toplaşırlar. Məntəqə seçki komissiyasının bütün üzvləri işə hazır olmalıdırlar. Seçki məntəqəsi açılmazdan əvvəl məntəqə seçki komissiyasının sədri komissiya üzvləri arasında aparılan vəzifə bölgüsünü təsdiqləyir və onlar öz iş yerlərini tuturlar. Məntəqə seçki komissiyası üzvlərinin vəzifə bölgüsü sədrin razılığı ilə komissiya üzvlərinin fikirləri nəzərə alınmaqla dəyişdirilə bilər. Seçki məntəqəsinin açılışına hazırlıq üçün sədr və ya onu əvəz edən komissiya üzvü aşağıdakı tapşırıqları verir.

**Seçki materiallarının və avadanlıqlarının hazırlanması**

Məntəqə seçki komissiyasının üzvləri seçki məntəqəsində işin təşkilinə cavabdehdirlər. Səsvermə kabinələri və müvafiq məlumat lövhələri düzəldilməli, səsvermə qaydasına dair təlimat plakatları divara vurulmalı və səsvermə kabinələrində yerləşdirilməli, məntəqə seçki komissiyasının möhürü, gözəgörünməyən mürəkkəb balonları, ultrabənövşəyi lampa, batareyalar, səsvermə üçün zəruri olan material və avadanlıqlar hazırlanmalıdır.

**Səsverməyə dair təlimat və məlumat plakatları**

Məntəqə seçki komissiyasının sədri səsvermə otağında asılmış seçki bülleteninin doldurulmasına dair izahın səsvermə kabinəsində də yerləşdirilməsini təmin etməlidir. O, səsvermə saatlarında həmin plakatların yerində olmasını müntəzəm surətdə yoxlamalıdır.

**Təşviqat materiallarının seçki məntəqəsindən çıxarılması**

Məntəqə seçki komissiyasının üzvləri səsverməyə 24 saat qalmış seçicilərin maarifləndirilməsi üçün nəzərdə tutulan məlumatlar istisna olmaqla, bütün təşviqat materiallarını səsvermə otağının daxilindən və xaricindən çıxarmalıdırlar.

**Akkreditasiyanın yoxlanılması**

Məntəqə seçki komissiyasının katibi seçki məntəqəsinə gəlmiş bütün müşahidəçilərin akkreditasiyasını və qeydə alınmış namizədlərin, onların səlahiyyətli nümayəndələrinin və vəkil edilmiş şəxslərinin, siyasi partiyaların, siyasi partiyalar bloklarının səlahiyyətli nümayəndələrinin, vəkil edilmiş şəxslərinin və KİV nümayəndələrinin lövhəciklərini yoxlamalıdır.

**Dairə seçki komissiyasından alınmış seçki bülletenlərinin sayılması və qeydiyyatı**

Səsvermə başlanmazdan əvvəl məntəqə seçki komissiyasının üzvləri buna hüququ olan şəxslərin müşahidəsi ilə seçki bülletenlərini sayır, onların hər birinin məntəqə seçki komissiyası tərəfindən əvvəlcədən möhürləndiyini yoxlayır (bülletenlər Seçki Məcəlləsinin 99.6-cı maddəsinə uyğun olaraq, Dairə Seçki Komissiyasından alındıqdan sonra onların üz tərəfinin yuxarı sağ küncü məntəqə seçki komissiyasının möhürü ilə möhürlənir) və bu barədə akt tərtib edirlər. Seçki bülletenlərinin sayı dəqiqləşdirildikdən sonra məntəqə seçki komissiyasının sədri onların sayını elan edir. Bu məlumat səsvermənin nəticələri haqqında protokolun qaralama nüsxəsinin 3-cü bəndinə daxil edilir.

**Seçki qutularının hazırlanması**

Səhər saat $7^{50}$-də məntəqə seçki komissiyasının sədri seçki məntəqəsini açıq elan edir, boş seçki qutularını seçki komissiyasının üzvlərinə, seçki məntəqəsində olan müşahidəçilərə göstərir, onları bağlayır, fərdi nömrələnmiş və təhlükəsizlik üçün nəzərdə tutulmuş birdəfəlik plastik kilidlərlə bağlayır. Sədr həmin kilidlərin fərdi nömrələrini elan edir.

Bu nömrələr məntəqə seçki komissiyasının müvafiq aktında qeyd olunur. Səsvermə günü seçki qutuları müşahidəçilərin və məntəqə seçki komissiyası üzvlərinin maneəsiz daim müşahidə edə biləcəyi yerdə yerləşdirilməlidir.

**Mürəkkəb və ultrabənövşəyi lampaların yoxlanılması**

Mürəkkəb və ultrabənövşəyi lampalar seçki məntəqəsi açılmazdan əvvəl müşahidəçilərin müşahidəsi ilə yoxlanılır. Yoxlama səsvermə otağında, məntəqə seçki komissiyası üzvlərinin birinin çeçələ barmağında aparılır və mürəkkəb balonları səsvermə otağında, masanın üstündə, hamının sərbəst görə biləcəyi yerdə saxlanılır.

**Səsvermənin yekunları barədə məlumatları göstərmək məqsədilə böyüdülmüş protokol nümunələrinin asılması**

Səsvermə otağında səsvermənin yekunları barədə məlumatları göstərmək məqsədilə səsvermənin yekununa dair böyüdülmüş protokol nümunələri asılmalıdır.

**Səsvermənin başlanmasının elan edilməsi**

Səhər saat $8^{00}$-də məntəqə seçki komissiyasının sədri səsvermənin başlanmasını ucadan elan edir.

**Səsvermə günü seçki məntəqəsində kimlər ola bilər?**

*- məntəqə seçki komissiyasının üzvləri;*

*- Mərkəzi Seçki Komissiyası və dairə seçki komissiyasının üzvləri;*

*- müvafiq seçki komissiyasının məşvərətçi səs hüquqlu üzvləri;*

*- qeydə alınmış namizədlər, onların səlahiyyətli nümayəndələri və vəkil edilmiş şəxsləri, siyasi partiyaların, siyasi partiyalar bloklarının səlahiyyətli nümayəndələri və vəkil edilmiş şəxsləri, akkreditasiyadan keçmiş beynəlxalq və yerli müşahidəçilər;*

*- KİV nümayəndələri;*

*- seçicilər (o cümlədən səsvermənin həyata keçirilməsi zamanı yardıma ehtiyacı olan seçicilərə kömək edən şəxslər).*

**Zəruri hallarda aşağıdakı şəxslər də ola bilərlər:**

*- səsvermə hüququnu həyata keçirən zaman və ya məntəqə seçki komissiyasının sədrinin dəvəti ilə yalnız ictimai asayişi bərpa etmək üçün xidməti geyim formasında olan polis işçiləri;*

*- müvafiq mütəxəssislər (məntəqə seçki komissiyası sədrinin dəvəti ilə yalnız texniki problemləri həll etmək üçün);*

*- zəruri yardıma ehtiyac olan hallarda kömək üçün dəvət edilən mütəxəssislər (təcili tibbi yardım, yanğınsöndürmə və sair üzrə mütəxəssislər). Onlar vəzifələrini icra edən kimi seçki məntəqəsini tərk etməlidirlər.*

**Səsvermə prosesi**

Seçici səs vermək üçün şəxsiyyət vəsiqəsini və ya onu əvəz edən müvafiq sənədi təqdim etməlidir.

**Seçicini qarşılayan və barmağının mürəkkəblə işarələnməsini yoxlayan məntəqə seçki komissiyasının üzvü:**

*seçki məntəqəsinə gələn hər bir seçicini səsvermə otağının girişində salamlayır;*

*seçicilərin şəxsiyyətini təsdiqləyən müvafiq sənədini yoxlayır;*

*ultrabənövşəyi lampa vasitəsilə seçicinin sol əlinin baş barmağının dırnaq və dərisinin bir hissəsinin gözəgörünməyən mürəkkəblə işarələnib-işarələnmədiyini yoxlayır və yəqin edir ki, seçici səs verməyib. Ultrabənövşəyi işıq seçicinin sol əlinin baş barmağı boyunca salınmalıdır;*

*əgər seçicinin barmağı artıq mürəkkəblə işarələnmişsə, məntəqə seçki komissiyasının üzvü ondan dərhal məntəqəni tərk etməsini tələb edir və seçicinin bu tələbi yerinə yetirməsinə əmin olur;*

*hər bir seçicidən səsvermə prosesinə aid sualı olub-olmamasını soruşur;*

*barmağında mürəkkəb olmayan seçiciyə məlumat lövhəsinə və sonra bülleten verən və seçicinin barmağını mürəkkəblə işarələyən məntəqə seçki komissiyasının üzvünə yaxınlaşmağı tövsiyə edir.*

**Səs vermək üçün seçici aşağıdakı sənədlərdən birini təqdim etməlidir:**

1. Azərbaycan Respublikasının vətəndaşları üçün:

*- şəxsiyyət vəsiqəsi;*

*- müvəqqəti şəxsiyyət vəsiqəsi.*

2. Qaçqın və məcburi köçkün vətəndaşlar üçün:

*- bu siyahının 1-ci bəndində göstərilən şəxsiyyəti təsdiq edən sənəd yoxdursa, Azərbaycan Respublikasının Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi tərəfindən müəyyənləşdirilmiş formalı vəsiqə.*

3. Həqiqi və ya müddətli hərbi xidmətdə olan hərbi qulluqçular üçün:

*- zabitin şəxsi vəsiqəsi;*

*- hərbi bilet.*

4. Barələrində həbs növündə qətimkan tədbiri seçilərək istintaq təcridxanalarında saxlanılan təqsirləndirilən şəxslər üçün:

*- Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Penitensiar Xidməti tərəfindən verilmiş təqsirləndirilən şəxsin şəxsiyyətini təsdiq edən sənəd.*

5. Azadlıqdan məhrumetmə yerlərində və xüsusi müəssisələrdə cəza çəkən məhkumlar üçün:

*- Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Penitensiar Xidməti tərəfindən verilmiş məhkumun şəxsiyyətini təsdiq edən sənəd.*

6. Azərbaycan Respublikası ərazisində 5 ildən az olmayaraq daimi yaşayan vətəndaşlığı olmayan şəxslər üçün:

*- icazə vəsiqəsi (Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsinə əsasən, Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidməti tərəfindən verilmiş onların ölkə ərazisində şəxsiyyətini və yaşayış yeri üzrə qeydiyyata alındığını təsdiq edən sənəd)*

*- vətəndaşlığı olmayan şəxsin şəxsiyyət vəsiqəsi.*

7. Müvafiq bələdiyyənin ərazisində 5 ildən az olmayaraq yaşayan xarici ölkə vətəndaşları üçün:

*- icazə vəsiqəsi.*

**Seçicinin barmağını mürəkkəblə işarələyən və bülleten verən məntəqə seçki komissiyasının üzvü:**

*seçicinin adını və soyadını soruşur və şəxsiyyətini təsdiq edən müvafiq sənədi təqdim etməyi ondan xahiş edir;*

*seçicinin adını seçicilər siyahısında tapır;*

*təqdim olunmuş şəxsiyyəti təsdiq edən sənədin seriyası və nömrəsini seçicilər siyahısında seçicinin adı qarşısında qeyd edir;*

*seçiciyə sol əlinin baş barmağının gözəgörünməyən mürəkkəblə işarələnməsini təklif edir;*

> **Yadda saxla!**
>
> **Barmağının mürəkkəblə işarələnməsinə etiraz edən seçiciyə seçki bülleteninin verilməyəcəyi izah edilir. Əgər seçici fikrini dəyişməzsə, ondan seçki məntəqəsini tərk etməsi xahiş olunur. Bu barədə seçici siyahısında "işarələnmədən imtina etdi" qeydi aparılır.**

*seçici razılaşarsa, onun sol əlinin baş barmağının dırnaq və dərisinin bir hissəsini gözəgörünməyən mürəkkəblə işarələyir və işarələndiyini yəqin edir. O, seçicini təlimatlandırır ki, mürəkkəb quruyanadək barmağına toxunmasın;*

*seçiciyə möhürlənmiş seçki bülleteni verir. Seçki bülletenini seçiciyə verərkən bülletenin nömrələnmiş yuxarı sol küncünü kəsir və özündə saxlayır;*

*adı seçicilər siyahısında olan seçicidən siyahıda adının qarşısındakı "seçicinin seçki bülletenini alması haqqında imza" qrafasında imza etməsini xahiş edir;*

*seçicini boş səsvermə kabinəsinə keçib seçki bülletenində namizədlərin soyadlarından sağdakı kvadratlarda seçiləcək bələdiyyə üzvlərinin sayına bərabər və ya bundan az sayda namizədə səs verdikdən sonra bülleteni qatlaması və seçki qutusuna salaraq seçki məntəqəsini tərk etməsi barədə təlimatlandırır.*

> **Yadda saxla!**
>
> **Hər seçici seçicilər siyahısında imza edərək yalnız bir seçki bülleteni alır və onda işarə qoyur. Seçicilər seçki bülletenində işarəni səsvermə kabinəsində gizli şəkildə qoymalıdırlar. Səsvermə kabinəsində seçici səs verərkən digər seçicinin kabinəyə daxil olmasına imkan verilməməlidir!**

**Məntəqə seçki komissiyasının seçki qutusunun mühafizəsi üçün cavabdeh üzvü:**

*o, seçicinin seçki bülletenini qatlayaraq seçki qutusuna salmasına əmin olur;*

*səs vermiş seçicidən seçki məntəqəsini tərk etməsini xahiş edir.*

***Naxçıvan Muxtar Respublikası Mərkəzi Seçki Komissiyası***

---

***2009-cu ildən fəaliyyət göstərən Babək Rayon Xalq Teatrı ötən dövr ərzində bir sıra maraqlı səhnə əsərlərinə müraciət etmiş, bölgə sakinlərinin asudə vaxtlarının səmərəli keçməsinə öz töhfəsini vermişdir.***

## "Durna" musiqili komediyasına ictimai baxış olub



Kollektivin indiyədək tamaşaçılara təqdim etdiyi əsərlər uğurlu səhnə həlli ilə teatrsevərlər tərəfindən rəğbətlə qarşılanmışdır.

Teatrın Xalq şairi Süleyman Rüstəmin "Durna" pyesi əsasında səhnələşdirdiyi musiqili komediyası Babək Rayon Mədəniyyət Evində ictimai baxış olmuşdur. Səhnə əsərinin rejissoru Yusif Əliyev, musiqi tərtibatçısı Səyyad Məmmədli, rəssamı Əli Səfərovdur. Rollarda Firdovsi Səfərov, Şölə Novruzbəyli, Vüsalə İsmayılova, Stella Babayeva, İsmayıl Qurbanov, Zeynəb Aslan və başqaları çıxış edirlər.

Tamaşada sadə bir kənd ailəsindən bəhs olunur. Zəhmətsevərlik və tənbəllik üz-üzə qoyulur. Həmçinin Muradla Durnanın təmiz eşqlərindən, saf məhəbbətlərindən söz açılır. Eləcə də cəmiyyətdə baş verən yalanın, ikiüzlülüyün aqibəti açıqlanır.

Tamaşadan sonra Babək Rayon İcra Hakimiyyətinin başçısı Elçin Hüseynəliyev, Naxçıvan Muxtar Respublikasının Mədəniyyət və Turizm naziri Sarvan İbrahimov teatrın kollektivini uğurlu tamaşa üçün təbrik etmiş, yaradıcı heyətə mükafat və fəxri fərmanlar təqdim olunmuşdur.

✍ **Sara ƏZİMOVA**

---

## Naxçıvan çempionatının ilk dövrəsinə yekun vurulub

*Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi ilə Futbol Federasiyasının birgə təşkil etdiyi futbol üzrə XIII Naxçıvan Muxtar Respublika çempionatının birinci dövrəsinə yekun vurulub. Çempionatda muxtar respublikanın bütün şəhər və rayonlarını təmsil edən 9 komanda mübarizə aparır.*

Çempionatın ilk turlarından başlayaraq ötən çempionatın qalibi "Universitet", mükafatçıları "Arpaçay" və "DİN FK" komandaları növbəti mövsümdə də çempionluğa iddialı olduqlarını təsdiq etməyə səy göstəriblər. Eyni zamanda Şahbuzun "Batabat", Culfanın "Əlincə" və Babək rayonunun eyniadlı komandaları da güclü rəqiblərinə qarşı oyunlarda inamlı təsir bağışlayıblar. Xüsusilə "Batabat" komandasının "Universitet" komandası üzərindəki qələbəsi, "Əlincə" komandasının Şərurdan xalla qayıtması çempionatın nə qədər gərgin mübarizə şəraitində keçməsindən xəbər verir.

Birinci dövrənin yekun nəticələrinə görə, turnir cədvəlində üçlükimiyyətlilik hökm sürür. "Universitet", "Arpaçay" və "DİN FK" komandaları 19 xalla ilk 3 pilləni bölüşüblər. Öz aralarındakı oyunları nəzərə alsaq, tələbələr daha yaxşı nəticə göstəriblər. Onlar cari mövsümə bir qədər inamsız başlasalar da, səkkizinci turda liderliyi ələ keçirə biliblər. "DİN FK" komandası isə səkkizinci tura qədər turnir cədvəlinə başçılıq edə bilsə də, son turlarda mövqeyini bir qədər zəiflədib və 3-cü pilləyə yuvarlanıb.

Cari mövsümün ilk dövrəsinə nəzər salsaq, azarkeşlər, ümumilikdə, 36 oyunun və 165 qolun şahidi olublar.

✍ **Ceyhun MƏMMƏDOV**

ŞƏRQ qapısı

Baş redaktor: TURAL SƏFƏROV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Muxtar Məmmədov

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 4020. Sifariş № 1052